## Bəzi malların ƏDV və aksiz dərəcələri dəyişdirilmişdir

Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış və 09.03.2021ci il tarixində qüvvəyə minmiş Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikaşının Qanununa görə: külçə, sikkə və ya qranul şəklində qızılın və gümüşün satışından, qızıldan və gümüşdən hazırlanan zərgərlik məmulatlarının istehsalı və emalı işlərinin görülməsi məqsədilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında dəzgahların, avadanlıqların və qurğuların idxalından – 2021-ci il yanvarın 1-dən 3 il müddətinə ƏDV tutulmayacaqdır.

Bundan başqa, bu Qanuna görə idxal olunan platin, qızıl və onlardan hazırlanmış zərgərlik və digər məmulatlar, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz - 2021-ci il yanvarın 1-dən 3 il müddətinə aksizdən azad edilir.

Həmin Qanuna əsasən 09.03.2021-ci il tarixindən başlayaraq istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər, habelə qəlyan üçün tütünlər və qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsulları aksizli mallara aid edilmişdir. İstehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər, habelə qəlyan üçün tütünlər üçün hər kiloqramına 30 manat aksiz, qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsullarının 1000 ədədinə 12,9 manat aksiz tətbiq edilmişdir.

Bundan başqa bəzi malların tətbiq olunan aksizlər artırılmışdır. Belə ki, siqarillanın (nazik siqarlar) 1000 ədədinə aksiz dərəcəsi 31 manatdan 43 manata, tütündən hazırlanan siqaretlərin və onun əvəzedicilərinin 1000 ədədinə aksiz dərəcəsi 31 manatdan 35 manata, elektron siqaretlər üçün mayenin hər litrinə aksiz dərəcəsi 20 manatdan 100 manata artırılmışdır.

İstehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər, habelə qəlyan üçün tütünlərə və qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsullarına görə aksizin məbləği aksiz dərəcəsi ilə həmin malların faktiki həcminin (miqdarının) hasilinə tətbiq edilməklə hesablanır.

www.caspianlegalcenter.az